# Bütün yollar Azərbaycandan keçir

44 günlük Vətən müharibəsində əldə edilən tarixi zəfər Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə yanaşı, Ermənistan ərazisindən Naxçıvana birbaşa nəqliyyat dəhlizinin yaradılması ideyasını da reallaşdırdı. 10 noyabr Bəyanatının imzalanmasından heç 100 gün keçməmiş Azərbaycan Prezidenti Horadiz-Ağbənd dəmir yolu xəttinin tikilməsinə start verdi. Qeyd etmək lazımdır ki, Horadizdən Ağbəndə qədər 100 kilometrlik dəmir yolu xətti Azərbaycan Dəmir Yolları ASC tərəfindən bərpa ediləcək.

Bu nəqliyyat arteriyasının Naxçıvana qədər uzadılması üçün Ermənistan ərazisində 40 kilometrlik yolun bərpa edilməsinə ehtiyac var ki, bunu da Rusiya reallaşdıracaq. Çünki Ermənistan dəmir yolları borc qarşılığında Rusiya tərəfinin sərəncamına keçib. Ümumiyyətlə, bu nəqliyyat dəhlizi 30 illik fasilədən sonra tək region ölkələri üçün deyil, daha geniş coğrafiyada iqtisadi aktivliyə səbəb olacaq.

Naxçıvana birbaşa dəmir yolu xəttinin çəkilməsi Muxtar Respublika iqtisadiyyatının bütöv Azərbaycan iqtisadiyyatına inteqrasiyasını möhkəmləndirəcək. Bununla da Naxçıvan 30 illik blokadadan çıxmaqla iqtisadi fəallığını artıracaq.

Naxçıvanla Bakı arasında birbaşa dəmir yolu xəttinin istifadəyə verilməsi buradan ixracı həm sürətləndirəcək, həm də daşıma xərclərini aşağı salacaq ki, bu da son nəticədə istər ölkə, istərsə də ixrac bazarlarında Naxçıvan istehsalı olan məhsulların rəqabət qabiliyyətini artıracaq. Eyni zamanda dəmir yolunun istifadəyə verilməsi ilə Azərbaycan öz strateji tərəfdaşı olan Türkiyə ilə iki istiqamətdə nəqliyyat əlaqəsinin qurulmasına nail olacaq.

Sovetlər dönəmində Ermənistanın SSRİ-yə daxil olan ölkələrlə ticarət əlaqələrinin 80 faizi Azərbaycan üzərindən keçən dəmir yolu xətti ilə reallaşdırılırdı. Son 30 ildə isə işğal səbəbindən Ermənistan Gürcüstan üzərindən keçən marşrutlar və hava yolu ilə ticarət əlaqələri yaradır.

Azərbaycanın Naxçıvanla birbaşa dəmir yolu əlaqəsi yaratması Ermənistana müasir və sürətli nəqliyyat dəhlizlərinə çıxış imkanı verəcək. Belə ki, Ermənistan eyni anda Azərbaycan, Türkiyə, Rusiya və İranla birbaşa dəmir yolu xəttinə malik olacaq ki, bu da iqtisadi canlanmaya gətirib çıxaracaq. Dəmir yolu xəttinin işə düşməsi Ermənistanın cənub bölgəsində sosial-iqtisadi vəziyyətin yaxşılaşmasına müsbət təsir edəcək. Xüsusən də cənubda yerləşən dağ-mədən kompleksləri daha aktiv şəkildə işləyə və birbaşa Rusiya, Türkiyə bazarlarına çıxış əldə edə biləcəklər. Bununla paralel olaraq Ermənistan Qazaxıstan, Özbəkistan, Türkmənistan və Çinlə ticarəti genişləndirmək imkanı qazanacaq.

Dəmir yolunun istifadəyə verilməsi Türkiyə üçün türk dilli ölkələrlə ticarəti genişləndirməyə imkan yaradacaq. Son illər Türkiyə şirkətləri Türkmənistan, Qazaxıstan, Özbəkistan kimi ölkələrə böyük həcmdə investisiyalar yatırıblar və bu ölkələrdə dövlət sifarişi ilə layihələr icra edirlər. Xüsusi olaraq Orta Asiya ölkələrinə tikinti materiallarının ixracını genişləndirirlər. Ona görə də dəmir yolu xəttinin işə düşməsi Türkiyənin türkdilli ölkələrə məhsul ixracına müsbət təsir edəcək.

Adətən ixrac yönümlü şirkətlər daha çox nəqliyyat dəhlizlərinə asan çıxış olan ərazilərə investisiya yatırırlar. İxrac yönümlü məhsullar isə əsasən daha yüksək dəyərli olur. Ona görə də Türkiyədə bu gün üçün əsas sənaye bölgələri sahil ərazilərində cəmləşib. Bu baxımdan dəmir yolu xəttinin işə düşməsi istehsalın Türkiyənin dərinliklərinə gəlməsinə müsbət təsir edəcək.

Rusiya da bu layihədən gəlir əldə edənlər arasında olacaq. Belə ki, ilk dəfə olaraq Rusiya Ermənistan dəmir yollarının istismarından gəlir əldə edəcək. Eyni zamanda rəsmi Moskva-Ankara arasında siyasi dialoqun genişlənməsi iqtisadi əlaqələrin dərinləşməsinə müsbət təsir edəcək. Bu baxımdan Rusiya Türkiyə bazarına dəmir yolu vasitəsilə sürətli çıxış əldə etmiş olacaq.

İran da dəmir yolunun açılmasından fayda götürəcək. İlk növbədə, İranın şimal bölgələrində ixrac yönümlü istehsal genişlənəcək. İran bu dəmir yolunun istifadəyə verilməsindən sonra təkcə Ermənistanla ticarət dövriyyəsini ən azı 50 faizə qədər artıra bilər. Türkiyə ilə də müsbət dinamika müşahidə ediləcək.

Ümumiyyətlə, Azərbaycanın təşəbbüsü ilə nəqliyyat kommunikasiyalarının tam şəkildə açılması təkcə region ölkələrinin deyil, ümumilikdə, Yaxın Şərq, Orta Asiya, Çin, Skandinaviya ölkələri, Ukrayna, Belarus və Yaponiyanın da iqtisadi maraqlarına tam cavab verir.

Dəhlizin tam şəkildə işə düşməsi Yaponiya-Rusiya-Azərbaycan-Ermənistan-Türkiyə-Yaxın Şərq nəqliyyat dəhlizinin yaranmasına təsir göstərəcək. Beləliklə, Azərbaycan Prezidentinin daha bir təşəbbüsü 300 milyon insanın yaşadığı böyük bir coğrafiyada xalqların birliyinə və firavan gələcəyinə təminat verir.

**«Qəbələ»**

# Vətən məni çağırarsa...



Vətənin dar günündə döyüşlərə könüllü gedən, ərazi bütövlüyümüz uğrunda canlarından keçmək üçün səfərbər olan qalib döyüşçülərimizdən biri də Tehran Şabanzadədir. O, 1991-ci il noyabr ayının 29-u Qəbələ rayonunun Daşca kəndində anadan olmuşdur. 2009-cu ildə orta məktəbi bitirən döyüşçümüz 2010-cu ilin yanvar ayında hərbi xidmətə yollanır.

Hərbi xidmət zamanı xüsusi təyinatlı qüvvələrdə xidmət edib, 2011-ci ildə hərbi xidməti başa vurmuşdur. II Qarabağ müharibəsi başladığını eşidəndə isə hər bir vətənpərvər azərbaycanlı kimi könüllü olaraq ordu sıralarına yazılmaq üçün dəfələrlə cəhd edir və 29 sentyabrda hərbi xidmətə yollanır. Tərtər, Suqovuşan istiqamətlərində gedəq döyüşlərdə iştirak etmişdir. Müharibə zamanı həmlə taborunda baş atıcı vəzifəsində düşmənə qarşı vuruşmuşdur. 2020-ci il dekabr ayında tərxis olunmuşdur. Döyüş zamanı yüngül zədə almışdır. Halhazırda fizioterapiya müalicəsi qəbul edir.

Müsahibimizdən soruşduqda ki, Vətən sizi bir də "çağırsa" yenidən o döyüşlərdə iştirak edərdinizmi? - dərhal cibində gəzdirdiyi hərbi biletini göstərdi, cavab artıq aydın idi... Cəsur döyüşçü hər an Vətənin müdafiəsinə hazırdır...

Var olun, Azərbaycan oğulları!

**Əfsanə ZAKİROVA,**
**«Qəbələ»**

## Qəbələ rayonu ərazisində yaşayan İkinci Qarabağ müharibəsində yaralanan hərbi qulluqçular (qazilər) barəsində məlumat

Qəbələ rayonu üzrə yaralanan hərbi qulluqçuların sayı 167 nəfərdir.

- Onlardan 83 nəfəri səfərbərliyə cəlb olunanlardır.

Yaralılardan 84 nəfər həqiqi hərbi xidmətdə olan çağırışçılardır.

Onların arasında polkovnik-leytenant 1 nəfər, həmçinin mayor 1 nəfərdir.

Qazilərdən 4 nəfəri bas leytenant, 6 nəfər isə leytenantdır.

Yaralılardan MAXE 14 nəfər, gizir isə 4 nəfərdir.

Qazilər arasında 2 nəfər hərbi həkim vardır.

Yaralılardan 135 nəfəri əsgərdir.

# Qalib döyüşçü...

Qürurumuzu dirçəldən, vətənimizi bütövləşdirən, bizə sevinc hissi yaşadan və alnımızın ləkəsini silən qəhrəmanlarımızdan biri də İlham Əfəndiyevdir. O həm də bir əlində silah, bir əlində qələm tutan müəllimlərimizdəndir. O müəllim ki, hələ vətən borcunu yerinə yetirən zaman adı zəfər, yolu müzəffər olan ordumuzun zabiti olmuşdur. Həm tarix müəllimi kimi, həm də qalib döyüşçü kimi «Suqovuşanın azad olunmasına görə» medalı ilə təltif olunan İlham müəllimlə söhbət etdik. Deyiləsi çox sözü vardı Vətən müharibəsinin qalibinin... Söhbətimizi oxucularımıza təqdim edirik.

***Sizi oxucularımıza necə tanıda bilərik?***

- Mən Əfəndiyev İlham Qüdrət oğlu 28 sentyabr 1977-ci ildə Qəbələ rayonunun Böyük Əmili kəndində anadan olmuşam. 1995-1999- cu illərdə BDU-nin tarix fakultəsində təhsil almışam. Universiteti bitirdikdən sonra təhsilimi davam etdirmək üçün magistraturada oxumuşam. 2002-2004-cü illərdə AMEA Z. Bünyadov adına Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi kimi çalışmışam. 2004-cü il fevralın 29-dan 2005-ci il oktyabr ayının 5-nə qədər isə Naxçıvan Muxtar Respublikasında N saylı hərbi hissədə Artilleriya Diviziyasının kəşfiyyat rəisi kimi xidmət etmişəm.

Hal-hazırda Qəbələdə müxtəlif kurslarda tarix müəllimi, eyni zamanda Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində tarix müəllimi və hərbi rəhbər kimi fəaliyyət göstərirəm.

***Döyüşlərə nə zaman yollandınız?***

- 2020-ci il sentyabrın 21-dən Qarabağ uğrunda gedən döyüşlərdə iştirak etmək üçün cəbhəyə yollanmışam. Döyüşlərin ilk günündən Tərtər rayonu Səhləbad kəndində kəşfiyyat taborunda radio-elektron kəşfiyyat tağım komandiri kimi xidmət etmişəm.

***Pedaqoq döyüşçü ilə sadə döyüşçü arasında hansı fərqlər var?***

- Əgər pedaqoq həqiqi pedaqoqdursa,tabeliyində olan əsgərlərə və yanında olan bütün hərbi qulluqçulara psixoloji dəstək olur, onlarla psixoloji mövzuda söhbətlər aparır və müharibənin labüdlüyünü, hər an hər şeyə hazır olmalı olduqlarını izah edir.

***Müəllimin əsas vəzifəsi təlim-tərbiyə işidir. Bəs ordudakı döyüşçü müəllimin ən başlıca vəzifəsi nədir?***

- Mən tarix fənnini tədris etdiyim bütün gəncləri daima vətənpərvər olmağa səsləmişəm. Məktəb tədbirlərində çıxış edərkən hər zaman yalnız bir arzumun olduğunu deyirdim - "lazım gəlsə deməyək, düşməndən qisasımızı alaq və Allah mənə də nəsib etsin ki, keçmiş zabit kimi o döyüşlərdə mən də iştirak edim". Çox şükür ki, bu arzum yerinə yetdi və şəhidlərimizin qanı yerdə qalmadı, o zəfərdə mənim də payım oldu. Onsuz da əsgərlərimiz hamısı qisas hissi ilə döyüşürdü, onlara nəyisə diktə etməyə ehtiyac yox idi. Lakin yenə də müəllim kimi güclü təbliğat aparırdım, bütün gücümüzlə irəli getməli olduğumuzu bildirirdim.

***Siz şagirdlərinizlə birgə döyüş zamanı onlara müəllim nöqteyi-nəzərdən yanaşırdınız, yoxsa döyüş yoldaşı?***

- Əvvəla, onu qeyd etmək istərdim ki, Peşə məktəbimizin 16 tələbəsi döyüşlərdə iştirak edirdi. Təəssüf ki, o, tələbələrimizdən 1-i şəhid oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin!



Təsadüfə baxın ki, kursda dərs dediyim bir neçə şagirdimlə birgə döyüşürdük. Eyni bölükdən olmasaq da amalımız, məqsədimiz eyni idi... Həmin şagirdlərimdən biri ilə eyni avtobusda getdik Ballıqayaya. Bəli, biz döyüş yoldaşı olduq amma o, məni sona qədər müəllim gözü ilə gördü, elə müraciət etdi. Ondan əlavə, başqa bir dərs dediyim şagirdim də vardı, yaralanmışdı. Lakin o qədər vətənpərvər idi ki, yaralı olduğu halda yenə döyüşlərə qayıtdı və əzmlə vuruşmağa davam etdi.Çox sevinirdim, indi də fərəh hissi duyuram ki, belə milli ruhda böyümüş cavanlarımız, gənclərimiz var. Bunun üçün onları yetişdirən valideynlərə və müəllimlərə təşəkkür edirəm.

***Sizcə döyüşən əsgərlərin bu qədər emosional və vətənpərvərliklə döyüşmələrinə səbəb nə idi?***

- Əminliklə deyə bilərəm ki, əsgərlərimizin bu cür emosional şəkildə vətənpərvərcəsinə döyüşməsinin səbəbi düşmənə qarşı nifrət, qisas, intiqam hissi idi...Düşmənin Xocalıda törətdiyi qətliamı, əsirlərimizin başlarına açdıqları oyunları görən gənclərimizin kini idi bu emosionallığın səbəbi...Xocalını, Ağdamı, Şuşanı, Kəlbəcəri, bütün işğal altında olan torpaqlarımızı azad görmək istəyi idi...

Yanımızda şəhid olan əsgərlərimizdən xüsusilə, birinin ən böyük arzusu idi Şuşanın alınmasını görmək. Təəssüf ki, görmədi, şəhid oldu. Lakin hamının bir nəfər kimi arzusu o idi. İnanın, bütün əsgərlər döyüşə can atırdılar, əmr gözləyirdilər- hücum əmri...

***Erməni vandalizmini, erməni faşizmini əyani şəkildə işğalda olan ərazilərdə görərkən gənc nəsilə daha nələri təbliğ edərdiniz?***

- Mən şagirdlərə tarix fənnini tədris edən zaman barbarların Romanı necə viran etdiyini izah edirdim həmişə. Hələ 455-ci ildə german tayfaları - vandallar Romanı yerlə-yeksan etmişdilər. Mən o vandalizmi işğaldan azad olunan torpaqlarımızda gördüm. Hətta mən hərbi xidməti bitirdikdən sonra öz avtomobilimlə əsgərlərimdən xəbər bilməyə getmişdim. Orada Çaylı kəndinin viran olmuş görüntülərini görüb dəhşətə gəlmişdim. Bunu insan olan şəxslər edə bilməzdi. Ancaq ermənı bacarardı...

***Gənclərə döyüş həyatınızdan danışmaq istəsəniz ən çox nələri aşkarca söyləmək istərdiniz?***

- Təbii ki, şahidi olduğum hər hadisəni danışmaq olmaz. Çünki müharibə çox amansızdır, acımasızdır. Amma gənclərimizin qəhrəmanlığından danışardım... Yaşından, səhhətindən asılı olmayaraq bütün insanların döyüş əzmindən, yaralanmağına baxmayaraq, "məni yenidən döyüşə göndərin" deyən qəbələli balasından danışardım. Və onlara tam səmimiyyətimlə "Torpaq, uğrunda ölən varsa Vətəndir" sözünün həqiqət olduğunu, "vətənimizi qorumaq boynumuzun borcudur" kəlməsini aşılayardım... və təbii ki, düşmənin necə hiyləgər, məkrli, necə alçaq olduğunu deyərdim. Bizə qarşı nifrətin dolub-daşdığı, havamızı udub, suyumuzu içib bizə nifrət qusan amansız düşmənlərimizin varlığından danışardım cavanlara.

***Döyüş bölgəsində olarkən həmkarlarınız və şagirdləriniz sizinlə əlaqə saxlaya bilirdilərmi?***

- İnanın, bir neçə il bundan qabaq məktəbi bitirən şagirdlərim belə məni soraqlaşıb, axtarıb, əlaqə saxlayıblar. Heç gözləmədiyim, ummadığım insanlar evimizə baş çəkiblər. Onların hər birinə, illərdir bir yerdə işlədiyim kollektivimizin dəyərli üzvlərinə məni yada saldıqları üçün, ailəmin yanında olduqları üçün və duaları vətənimizin keşiyində duranlardan bir an belə əsirgəmədikləri üçün öz minnətdarlığımı bildirirəm. Var olsunlar daima!

***Sizcə, Vətən vətəni vətən edənlərindirmi?***

- Əlbəttə. Vətən hamımızındır, Vətən onu müqəddəs bilənlərindir! Vətən uğrunda ölənlərindir!

Allah Şəhidlərimizə rəhmət eləsin! Qazilərimizə şəfa versin!

***Maraqlı söhbətinizə, müsahibənizə görə çox sağ olun, İlham müəllim.***

**Əfsanə ZAKİROVA,**
**«Qəbələ»**